AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Avtonəqliyyat vasitələri ilə respublika ərazisində daşıma fəaliyyəti həyata keçirirsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

Avtonəqliyyat vasitələri ilə respublika ərazisində sərnişin və yük daşımaları fəaliyyəti həyata keçirirsinizsə və fəaliyyətiniz aşağıdakı tələblərə cavab verirsə, **1 yanvar 2019-cu il tarixdən etibarən ƏDV-nin məqsədləri üçün qeydiyyata könüllü qaydada alınmaq üçün ərizə vermək hüququndan istifadə edə bilərsiniz**:

- göstərilən xidmətlərin dəyəri və alınmış malların (işlərin və xidmətlərin) dəyəri nağdsız qaydada əldə edilir və ödənilir;
- digər vergi ödəyicilərinə göstərilən xidmətlər üzrə əldə edilən gəlirlər və gəlirlərin əldə edilməsi üzrə çəkilən xərclər elektron qaimə-faktura ilə rəsmiləşdirilir;
- göstərilən xidmətlər üzrə əməliyyatların uçotu vahid mərkəzləşdirilmiş elektron sistem üzərində aparılır və vergi orqanının həmin sistemə məsafədən çıxış imkanı təmin edilir.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Əlavə olaraq bilməlisiniz ki...

- Bunun üçün **yanvar ayının 31-dən gec olmayaraq** ƏDV qeydiyyatına könüllü alınmaq üçün ərizə ilə vergi orqanına müraciət edə bilərsiniz.
- Bu halda **ƏDV qeydiyyatı yanvar ayının 1-dən qüvvəyə minir**.
- ƏDV qeydiyyatınızın qüvvəyə mindiyi tarixdən etibarən bu fəaliyyət üzrə əldə edilən gəlirinizdən **hüquqi şəxs kimi ƏDV və mənfəət vergisini, fiziki şəxs kimi ƏDV və gəlir vergisini** hesablayaraq bəyan etməklə dövlət büdcəsinə ödəməlisiniz.
- ƏDV qeydiyyatınızın qüvvəyə mindiyi tarixdən etibarən **3 il keçdikdən sonrakı** istənilən vaxt **ƏDV qeydiyyatınızın ləğv olunmasına** dair vergi orqanına ərizə ilə müraciət edə bilərsiniz.

## Əlavə olaraq...

- Fərdi sahibkar olduğunuz təqdirdə, 1 yanvar 2019-cu il tarixdən 1 il müddətinədək hər ay üzrə minimum aylıq əməkhaqqının **20 faizi** məbləğinin:
  - Bakı şəhərində 100 faizi;
  - Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;
  - respublika tabeli digər şəhərində 80 faizi;
  - rayon mərkəzlərində, digər şəhər və qəsəbələrdə 60 faizi;
  - kənd yerlərində 50 faizi miqdarında **məcburi dövlət sosial sığorta haqqı** hesablamalı və bu barədə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına hesabat təqdim etməli;
- **Məcburi dövlət sosial sığorta haqqını** hər ay üzrə növbəti ayın **15-dən** gec olmayaraq tam məbləğdə yalnız nağdsız hesablaşma qaydasında ödəməlisiniz.

Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı  www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.